# KNAUF Rotband-Qrund

**Gips suvaqlar üçün astar qarışığı**

KNAUF
Alman standartı






## Tətbiq sahəsi

KNAUF Rotband-Qrund – qırmızı, istifadəyə hazır, tərkibində həlledicilər olmayan polimer emulsiyadır. Emal edilən əsasın hopdurma qabiliyyətini səmərəli şəkildə nizamlayır, gips suvaq və üzlük suvaqların bərabər səviyyəli yapışmasına kömək edir. KNAUF-Rotband və digər gips əsaslı suvaqların çəkilməsindən əvvəl nəmi hopduran səthlərin (məsaməli beton və penobeton, keramik və silikat kərpic və s.) emal edilməsi üçün nəzərdə tutulmuşdur. KNAUF-Boden 15/25/30 gips döşəmələrinin tökülməsindən əvvəl beton əsasların astarlanması üçün nəzərdə tutulub.

## İş qaydası

İşlərə başlamazdan əvvəl emal edilən səthi hazırlamaq lazımdır. Əsas təmiz, tozdan və laylanan hissəciklərdən təmizlənmiş olmalıdır. İşlərin aparıldığı otaqda havanın və əsasın səthinin temperaturu tam quruma baş verənə qədər +5°C ilə +25°C aralığında olmalıdır.
KNAUF Rotband-Qrund astarı istifadəyə hazırdır. Bilavasitə işlərin görülməsindən əvvəl astar tərkibini qarışdırmaq tövsiyə olunur, sonra bərabər qaydada, su ilə qarışdırmadan val-vərdənə və ya fırça ilə emal edilən səthə çəkmək lazımdır. Astar ilə emal edilmiş səthlə bağlı sonrakı əməliyyatları yalnız astar quruduqdan sonra aparmaq lazımdır (minimum 6 saat).
Astarın qurumasının sonu ilə sonrakı işlərin başlanğıcı arasındakı müddət mümkün qədər qısa olmalıdır ki, əsasın səthinə inşaat tozu qonmasın.
KNAUF Rotband-Qrundun çəkilməsi bitdikdən sonra astar qalıqları quruyana qədər istifadə olunmuş kirli alət və qablar su ilə yuyulmalıdır.
Qurumuş KNAUF Rotband-Qrundun təmizlənməsi yalnız mexaniki yolla mümkündür.
Astara digər materiallar əlavə edilməməlidir. Bu onun xüsusiyyətlərinin əhəmiyyətli dərəcədə pisləşməsinə gətirib çıxarır.

## Qablaşdırma və saxlama

Qarışıq 10 və 15 kq-lıq vedrələrə qablaşdırılır. KNAUF Rotband-Qrund astarı qarışığını temperaturu +5°C və +25°C aralığında olan otaqda saxlamaq lazımdır. Donmaya və həddən artıq qızmaya imkan verilməməlidir. Açılmamış və zədələnməmiş qablaşdırmada saxlama müddəti – 12 aydır.

## Astar sərfi

bir çəkim zamanı

| Material | Ölçü vahidi | Miqdar |
|---|---|---|
| KNAUF Rotband-Qrund | kq/m² | 0,4 |